AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

TƏHSİL SİSTEMİNİN
İNFORMASİYALAŞDIRILMASI İDARƏSİ

ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

**Respublika fənn olimpiadaları (bundan sonra RFO) ilə bağlı ən çox verilən suallar və cavablar**

Dəstək xətti: +994512067848 (vatsap)

**Sual: RFO nədir?**

**Cavab:** RFO hər tədris ilində bir dəfə olmaqla Elm və Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən keçirilən elm yarışıdır.

**Sual: RFO hansı turlardan və mərhələlərdən ibarətdir?**

**Cavab:** RFO ümumilikdə dörd mərhələdə təşkil olunur:

1. Məktəb mərhələsi,
2. Rayon (şəhər) mərhələsi,
3. Respublika mərhələsi yarımfinal turu,
4. Respublika mərhələsi final turu.

**Sual: Məktəb mərhələsi necə təşkil olunacaq?**

**Cavab:** Şagirdlərin hər biri portal.edu.az platforması üzərindən qeydiyyatdan keçməlidir. Qeydiyyat prosesini tamamlayan şagirdlər Regional Təhsil İdarələri tərəfindən təşkil edilən məktəb mərhələsində iştirak etməlidirlər. Növbəti — Rayon (şəhər) mərhələsində iştirak edəcək şagirdlər isə Regional Təhsil İdarəsi nəzdində yaradılmış Təşkilat Komitəsinin qərarı əsasında müəyyənləşdiriləcək.

**QEYD: Digər qurumlara tabe olan və özəl ümumi təhsil müəssisələri məktəb mərhələsini daxili imtahan əsasında keçirməli və növbəti mərhələyə vəsiqə qazanan şagirdlərin siyahısını ARTİ-yə təqdim etməlidirlər.**

**Sual:?**

**Cavab:** RFO Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri olmaqla 8 müxtəlif fənn üzrə keçirilir.

**Sual: RFO hansı fənlər üzrə keçirilir?**

**Cavab:** RFO Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri olmaqla 8 müxtəlif fənn üzrə keçirilir.

**Sual: Məktəb mərhələsində iştirak üçün buraxılış vərəqinə ehtiyac varmı?**

**Cavab:** Məktəb mərhələsində portal.edu.az platformasında buraxılış vərəqəsi təqdim olunmur. Yalnız Regional Təhsil İdarəsi tərəfindən keçirilən imtahanda uğurlu nəticə göstərərək növbəti mərhələdə iştirak hüququ qazanan şagirdlər üçün platformaya buraxılış vərəqəsi yüklənəcək. Şagirdin şəxsi kabinetində müsabiqə statusu barədə məlumat əks olunacaq.

**Sual: RFO-da bir neçə fənn üzrə iştirak mümkündür?**

**Cavab:** İnformatika fənni istisna olmaqla, şagirdlər yalnız bir fənn üzrə iştirak edə bilərlər. Hər hansı fəndən qeydiyyatdan keçmiş şagidlərə paralel olaraq, informatika fənnindən də qeydiyyatdan keçmək şərtilə iştirak hüququ veriləcəkdir.

**Sual: RFO-da necə iştirak edilə bilər?**
**Cavab:** RFO-da iştirak məqsədilə portal.edu.az saytından qeydiyyatdan keçə bilərsiniz.

**Sual: Qeydiyyat hansı tarixləri əhatə edir?**
**Cavab:** Qeydiyyat 4 noyabr - 19 noyabr 2025-ci il tarixlərində həyata keçiriləcəkdir.

**Sual: RFO-da neçənci sinif şagirdləri iştirak edə bilər?**
**Cavab:** RFO-da yalnız VIII, IX, X və XI sinif şagirdləri iştirak edirlər.

**Sual: RFO-da tapşırıqlar kimlər tərəfindən hazırlanır?**
**Cavab:** RFO-da şagirdlərə təqdim edilən tapşırıqlar Elm və Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş münsiflər heyəti tərəfindən hazırlanır.

**Sual: RFO tapşırıqları hansı mövzuları əhatə edir?**
**Cavab:** RFO-nun proqramı məktəb proqramı ilə məhdudlaşmır. Olimpiadalarla əlaqədar müvafiq proqram tədris ilinin əvvəlində yerli təhsili idarəetmə orqanları vasitəsilə məktəblərə göndərilib və **www.arti.edu.az** saytında yerləşdirilib.

**Qeydiyyatla bağlı suallar:**

**Xüsusi qeyd:** *Hər bir şagird RFO rayon (şəhər) mərhələsi zamanı ancaq və ancaq bir dəfə qeydiyyatdan keçə bilər.*

**Sual 1. RFO-ya necə qeydiyyatdan keçməliyəm?**
Cavab: RFO-ya müraciət etmək istəyən şəxslərin valideyni və ya qanuni nümayəndəsi ilk öncə **"portal.edu.az"** saytında qeydiyyatdan keçməlidir. Qeydiyyatdan keçdikdən sonra olimpiadada iştirak edəcək şagirdi əlavə etməklə **"Xidmətlər"** bölməsindən **"Olimpiadalar və Müsabiqələr"** bölməsini seçib, **"Müraciət et"** düyməsinə sıxmaqla müraciət göndərə bilərlər.

**Sual 2. Portalda övladımı (və ya şagirdi) öz kabinetimə necə əlavə edə bilər?**
Cavab: Övladı və ya şagirdi portal.edu.az-da "Tənzimləmələr" bölməsindən "Övlad əlavə et" düyməsini sıxmaqla UTİS kod və ya FİN kodla əlavə etmək mümkündür.

**Sual 3. Portalda şagird özü kabinet yaradıb müraciət edə bilərmi?**
Cavab: Xeyr, şagird özü birbaşa müraciət edə bilməz. Yalnız valideyn və ya qanuni nümayəndə tərəfindən yaradılmış kabinet vasitəsilə müraciət göndərmək mümkündür.

**Sual 4. Portalda artıq qeydiyyatım varsa, yenidən sistemdə qeydiyyatdan keçməliyəm?**
Cavab: Portalda artıq qeydiyyatınız varsa, yenidən qeydiyyatdan keçməyinizə ehtiyac yoxdur. Əgər müraciətinizi tamamlayıb göndərməmisinizsə, mütləq **"Olimpiadalar və Müsabiqələr"** xidmətini seçməklə müraciətinizi göndərməlisiniz.

**Sual 5. Şifrəmi unutmuşam. Necə bərpa etməliyəm?**
Cavab: Şəxsi kabinetə giriş üçün istifadə etdiyiniz şifrəni unutduğunuz halda əsas səhifədən **"Şifrəni unutdun?"** düyməsini sıxaraq açılan pəncərədə ilk öncə elektron poçt ünvanınızı daxil edin. Açılan növbəti pəncərədə isə mobil nömrənizin son 4 rəqəmini daxil edin. Nömrəyə gələn təsdiq kodunu yazdıqdan sonra yeni şifrə təyin edilməlidir.

**Sual 6. Sistemə daxil olduqdan sonra hansı xidməti seçməliyəm?**
Cavab: Sistemə daxil olduqdan sonra **"Olimpiadalar və Müsabiqələr"** xidmətini seçməli və məlumatlarınızı formaya uyğun doldurmalısınız.

**Sual 7. Şəxsi məlumatlarımı necə daxil etməliyəm?**
Cavab: Şəxsi məlumatlarınız şəxsiyyət vəsiqənizin FİN kodu vasitəsilə avtomatik olaraq əks olunur. Yəni, hər hansı məlumatı daxil etməyinizə ehtiyac yoxdur.

**Sual 8. Şəxsi məlumatlarım barədə nələrə diqqət etməliyəm?**
Cavab: Qeydiyyat zamanı daxil edilən FİN kodunun, mobil nömrənin, e-poçt ünvanının və digər məlumatların müraciətçinin özünə aid olmasına diqqət edilməlidir.

**Sual 9. Şəxsi məlumatlarımdakı elektron poçt və ya mobil nömrə mənə aid deyil, nə etməliyəm?**
Cavab: Siz qeydiyyatdan keçdiyiniz zaman istifadə etdiyiniz mobil nömrə və ya elektron poçt şəxsi məlumatlarınızda əks olunmuşdur.

**Sual 10. Sənədlərimin qəbul edilib-edilmədiyini necə öyrənə bilərəm?**
Cavab: Müraciətinizə şəxsi kabinetinizdə **"Müsabiqələr və Olimpiadalar"** xidmətinə daxil olaraq, **"Ümumi məlumatlar"** səhifəsində Statusların tarixçəsi bölməsindən öyrənə bilərsiniz. Qeydiyyatını tamamlayaraq təsdiq etmiş bütün müraciətçilər "status" vasitəsilə prosesin gedişini izləyə bilərlər.

**Sual 11. İmtahanda iştirak üçün buraxılış vərəqini necə əldə edə bilərəm?**
Cavab: Müraciətini tamamlamış bütün müraciətçilər qeydiyyat müddəti bitdikdən sonra öz şəxsi kabinetlərindən **"buraxılış vərəqi"**-ni çap edə biləcəklər.

**Sual 12. Müraciət zamanı nələrə diqqət etməliyəm?**
Cavab: Müraciət zamanı daxil edilən təhsil və müsabiqə məlumatlarının düzgün doldurulmasına diqqət edilməlidir.
**Qeyd: Müraciətiniz təsdiqlədikdən sonra məlumatları dəyişdirmək mümkün olmayacaqdır.**

**Sual 13. Qeydiyyatla bağlı yaranmış çətinlikləri hara bildirməliyəm?**
Cavab: Çətinliklərinizi 051 206 78 48 vatsap nömrəsinə yazılı şəkildə bildirməyiniz xahiş olunur.